## Hər şeyi unutduran təbəssüm

Bir hadisə ilə bağlı heç kefim yox idi. Belə hallarda təkliyə qapılmaq, özümlə baş-başa qalmaq və ya heç bir xüsusi məqsəd olmadan şəhərin sevdiyim yerlərini dolaşmaq əsas vərdişindir. Bu dəfə üz tutdum Fəxri xiyabana. Bakıda ən çox sevdiyim yerlərdən biridir Fəxri xiyaban. Ümumiyyətlə, qəbristanlıq mənim üçün ən müqəddəs yerlərdən biridir. Hər dəfə kəndimizə gedəndə mütləq kənd qəbristanlığını ziyarət edirəm. Uzaq və yaxın keçmişimizi kino lenti kimi göz önündən keçirmək üçün ən müqəddəs, sakit yerdir qəbristanlıq.

Fəxri xiyaban – yaddaş xəzinəmiz. Fəxri xiyaban 1948-ci ildə yaradılmışdır. Buraya ilk olaraq Cəlil Məmmədquluzadə, Həsən bəy Zərdabi, Əbdürrəhim bəy Haqverdiyev, Hüseyn Ərəblinski, Nəcəf bəy Vəzirov, Əzim Əzimzadə, Süleyman Sani Axundov, Əli Nəzmi, Cabbar Qaryağdıoğlu və Hüseynqulu Sarabskinin məzarları köçürülmüş, qəbirüstü abidələri qoyulmuşdur. O gündən bu günə neçə-neçə şair və yazıçılar, elm, mədəniyyət xadimləri, siyasət adamları, dövlət xadimləri, öz həyat və yaradıcılıqları ilə xalqımızın keçmişini, bu gününü, gələcəyini yaşadan böyük şəxsiyyətlər yatır bu müqəddəs məkanda.

Xiyabanda hökm sürən ideal təmizlik ürək açır. Şıxəli Qurbanovun məzarı üzərində təmizlik işləri aparan xidmətçiyə yaxınlaşıb, buradakı təmizliyə görə təşəkkür edirəm. Bununla belə, gözümə dəyən və fikrimcə, çatışmayan cəhətlərdən birini qeyd etmək yerinə düşər. Bəzi qəbirüstü abidələrin üzərində heç bir əlavə məlumat verilmədən, ziyarətçilərin əksəriyyətinə heç nə deməyən ad, soyad və ata adı yazılıb. Məsələn, “Qasımov Əli Niyazi oğlu”, “İqor Vladimiroviç İvanov” (etika xətrinə adlar şərtidir). Əlbəttə, Səməd Vurğunun qəbirüstü abidəsi üzərində əlavə məlumata – “xalq şairi” yazmağa, ola bilər ki, ehtiyac yoxdur, amma bir çox hallarda, xalq arasında geniş tanınmamış insanlar haqqında əlavə məlumat zəruridir. Fəxri xiyabanın bütün ziyarətçiləri burada uyuyan hər kəsi yaxşı tanımalıdır.

Xiyabanı tərk etdiyimdə qəribə hisslər vardı içimdə. Bir tərəfdən bu qədər böyük şəxsiyyətləri yetirən bir millətin övladı olmağımla fəxr edirdim, digər

tərəfdən də elmdə, mədəniyyətdə, musiqidə, ədəbiyyatda, siyasətdə bu şəxsiyyətlərin yerini doldurmağın nə qədər müşkül iş olduğunu anlayaraq bir ümidsizliyə qapılırdım.

Bu fikirlərlə, düşüncələr içində yön aldım dəniz kənarına. Hava soyuq idi. Göyün üzü qaralmışdı, deyəsən yağacaqdı. İnsanlar isə heç nəyə məhəl qoymadan, heç bir dərdi-səri yoxmuş kimi sistemsiz şəkildə ora-bura hərəkət edir, sanki dəniz havasının ləzzətini belə duymurdular. Dənizin ləpələri isə həyatdan bezmiş kimi, özünü sahilə çırparaq uğum-uğum uğuldayırdı. Onsuz da kefimin olmadığı bir vaxtda bu zavallı dalğaların qışqırtısı da mənə bir dərd oldu. "Bu nədir, hara gedirəm qəm-kədər-sarsıntı izləyir məni" deyə, tələsik sahili tərk etdim.

"Evə gəldim, can pərişan" (*misra Səməd Vurğunun "Unudulmuş tək məzar" şeirindəndir*). Saatın tənbəl-tənbəl fırlanan rəqəmləri $23^{15}$-i göstərirdi. Televizoru qurdum. Gecələr televizora baxmağı sevirəm. Xüsusən də, heyvanlarla bağlı verilişlərə. Bizim dünyamızdan fərqli olaraq heyvanların dünyası daha təbiidir, onların dünyasında qanunlara (cəngəllik qanunları da olsa) ciddi əməl edilir, hər kəs dostunu və düşmənini yaxşı tanıyır. "Animal planet" (heyvanlar aləmi) kanalında gedən "Vəhşi yaşam" verilişi çox həvəslə izlədiyim verilişlərdən biridir. Heyvanların həyatı ilə bağlı maraqlı mənzərələr, cəngəllik qanunları, sualtı həyat, ümümiyyətlə heyvanların, quşlarn yaşam tərzi mənim üçün çox maraqlıdır. Bir az paradoksal da olsa, bir çox qanlı mənzərələri də özündə əks etdirən bu verilişlər məni sakitləşdirir, duruldur. Bəlkə bu ona görə belədir ki, bu gün dünyamızda baş verən ədalətsizliklərlə müqayisədə vəhşi heyvanların bir-birini parçalaması mənzərələri toyagetməlidir, daha qəbuledilləndir. Yuxarıda adı çəkilən proqramda izlədiyim bir epizod isə lap məni məndən aldı. Verilişdə çalıquşlarının yaşam tərzindən bəhs edilirdi. Verilişin müəllifi günlər boyunca bir çalıquşunun həyatını izləmişdi. "Quş min bir əziyyətlə bir ağacın gövdəsində yuva tikir, dörd balası dünyaya gəlir. Dimdiyində yem gətirərək balalarını yemləyir, qayğısız körpələri böyütməyə çalışırdı. Hər dəfə anaları yem gətirəndə sarı dimdiklərini açaraq civildəşən quş balalarına baxdıqca, uşaq kimi sevinirdim, amma nədənsə gözlərim

də yaşarırdı. Birdən sanki ayıldım. Bu körpələr belə şən və xəşbəxt ikən bu qəmlənmək, bu qəhər nədir deyə, özümü danlamağa başladım. Amma bir qədər sonra hər şey dəyişdi. Bir yırtıcı şahin balaca çalıquşunu nişanlamışdı. Çalıquşu da həyəcanlı idi, deyəsən, şahinin onu izlədiyini duymuşdu. Qonduğu budaqdan ayrılaraq yuvasına tərəf cumdu. Fəqət tam yuvasına girhagirdə şahinin caynaqları hər şeyə son qoydu. Şahin ana çalıquşunu yuvasına gətirib öz balalarını yemlədi. Çalıquşunun yuvasında quraşdırılmış kamera isə anasız qalmış dörd balanın acından öldüyünü lentə almışdı". Nə qədər acı bir mənzərə! Mənimlə bərabər şərhçi qızın da səsindəki qəhər açıq-aydın hiss olunurdu.

Bu əhvali-ruhiyyədən necə ayrılacağımı bilmirdim. Birdən Aslanın "iyi gecələr, ata" (Aslan həmişə yatmağa gedəndə mənimlə belə sağollaşır) sözləri məni sanki yuxudan ayıltdı. Yataq otağıma girəndə isə hər şey yaddan çıxdı, qəmdən, qəhərdən əsər-əlamət qalmadı. İki yaşlı oğlum Hakan mənim yerimdə yatmışdı. Qəribə bir təbəssüm vardı mələk üzündə. Yuxuda gülümsəyirdi. Deyəsən, mən də gülümsəməyə başlamışdım...

Kefim kökəlsə də, hələ yuxum gəlmirdi. Belə hallarda ən yaxın dostum, könül sirdaşım poeziyadır. Səməd Vurğun, Müşfiq, Cabbarlı, Yesenin, lermontov...

Yenə o bağ olaydı, yenə yığışaraq siz
O bağa köçəydiniz.
Biz də muradımızca fələkdən kam alaydıq,
Sizə qonşu olaydıq.
Yenə o bağ olaydı, səni tez-tez görəydim,
Qələmə söz verəydim.
Hər gün bir yeni nəğmə, hər gün bir yeni ilham…
Yazaydım səhər-axşam.
Arzuya bax, sevgilim, tellərindən incəmi?
Söylə, ürəyincəmi?

Gecədən xeyli keçmişdi. Divar qonşumuzun mənzilindən isə hələ də adət etdiyimiz dava-dalaş səsləri gəlirdi...

***Mənbə:***
***Хязяр-Хябяр, (журнал) № 265, 15 mart 2009. Хязяр Университяси***